AZƏRBAYCAN
RESPUBLİKASI
VERGİLƏR
NAZİRLİYİ

# Sadələşdirilmiş verginin ödəyicisisiniz və ya olmaq istəyirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

- **1 yanvar 2019-cu il** tarixdən etibarən sadələşdirilmiş vergini hesabat rübü ərzində təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə etdiyiniz ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmindən (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna olmaqla), **fəaliyyət göstərdiyiniz ərazidən asılı olmayaraq, 2 faiz dərəcə ilə** hesablamalısınız.

- Qeyd edilən **2 faiz vergi dərəcəsi** vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə və Vergi Məcəlləsinin 218.4-cü maddəsində göstərilən vergi ödəyicilərinə **şamil edilmir**.

195
Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az
**www.taxes.gov.az**

**1 yanvar 2019-cu il** tarixdən etibarən **aşağıdakı şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ yoxdur:**

- ardıcıl 12 ay (aylar) ərzində vergi tutulan əməliyyatlarının həcmi **200.000 manatdan artıq olan ticarət fəaliyyəti** ilə məşğul olan şəxslər;
- **məcburi nişanlanmalı olan mallar istehsal** edən şəxslər;
- **işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini** həyata keçirən şəxslər;
- **topdansatış qaydasında malların təqdim edilməsini** həyata keçirən şəxslər;
- **xidmətlərin göstərilməsini** həyata keçirən şəxslər (respublika ərazisində göstərilən sərnişin və yük-daşıma (o cümlədən taksi ilə) xidmətləri, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlər və aylıq sabit verginin ödəyiciləri olan fiziki şəxslər tərəfindən xidmətlərin göstərilməsi istisna edilməklə);
- **qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını** həyata keçirən şəxslər;
- **xəz-dəri məmulatlarının satışını** həyata keçirən şəxslər;
- **lisenziya tələb olunan fəaliyyət növü** ilə (bina tikintisi fəaliyyəti ilə məşğul olan və icbari sığorta müqavilələri üzrə xidmət göstərən şəxslər istisna olmaqla) məşğul olan şəxslər.

- Qeyd edilən şəxslər **1 yanvar 2019-cu il tarixdən etibarən** mənfəət (gəlir) vergisinin və ya ƏDV və mənfəət (gəlir) vergisinin ödəyicisi kimi (məcburi nişanlanmalı mallar istehsal edən və ardıcıl 12 ay (aylar) ərzində vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olmaqla ticarət fəaliyyəti ilə məşğul olan şəxslər mütləq qaydada ƏDV və mənfəət (gəlir) vergisinin ödəyicisi olmalıdır) fəaliyyət göstərməlidirlər.